# POLOVİNKA RUSLAN ALEKSANDROVİÇ



Ruslan Polovinka 21 oktyabr 1969-cu ildə Ukrayna Respublikası Xarkov vilayətinin Zmiyev şəhərində anadan olmuşdur. 1987-ci ildə Sızran Ali Hərbi Təyyarəçilər məktəbinə daxil olmuşdur. Ali məktəbi bitirdikdən sonra 1991-ci ildə Naxçıvan şəhərində hərbi hissəyə göndərilmişdir. Azərbaycanda Hərbi Hava Qüvvələri yarananda xidmətini Bakı Əlahiddə Vertolyot Eskadrilyasında təyyarəçi-operator vəzifəsində davam etdirmişdir. R.Polovinka 1992-ci ildən başlayaraq erməni hərbi birləşmələrinə qarşı əməliyyatlarda fəallıq göstərmişdir. Qubadlı, Laçın, Ağdərə uğrunda gedən döyüşlərdə rəşadət nümayiş etdirmişdir. 6 avqust 1992-ci ildə Kasapet yüksəkliyində özünə mövqe seçən düşmən piyada döyüşçülərimizi çətin vəziyyətə salmışdı. Bundan xəbər tutan səma qartalları bircə anda havaya qalxdılar. Mİ-24 vertolyotunda üç dəfə təhlükəli zonaya uçuş keçirən Ruslan düşmənin mövqelərini darmadağın etmişdi. Həmçinin atəş altında yaralıları, meyitləri də çıxarmağa müvəffəq olmuşdu. Dördüncü uçuş zamanı Ruslan qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Zmiyev şəhərində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il 204 saylı Fərmanı ilə Polovinka Ruslan Aleksandroviç ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.